# "Könüllülər İli" gənclərin sosial məsuliyyət hissini gücləndirəcək



Prezident İlham Əliyevin sərəncamları ilə illərin konkret məsələlərə həsr edilməsi artıq ənənə halını alıb. 2016-cı il "Multikulturalizm İli", 2017-ci il "İslam Həmrəyliyi İli", 2018-ci il "Azərbaycan Xalq Cümhuriyyəti İli", 2019-cu il isə "Nəsimi İli" elan edilib. İl ərzində mövzu ilə bağlı çoxsaylı tədbirlər, konfranslar, forumlar həyata keçirilib, geniş müzakirələr aparılıb. "Multikulturalizm İli"ndə öz milli-mənəvi, tarixi dəyərlərini dünya ictimaiyyətinə çatdırmaq şansı əldə edən Azərbaycan "İslam Həmrəyliyi İli"ndə həm İslam dünyasında, həm də bütün dünyada həmrəylik nümunəsinə çevrildi. "Azərbaycan Xalq Cümhuriyyəti İli"nin layiqincə qeyd edilməsi tariximizə, keçmişimizə böyük ehtiramın təcəssümü oldu. 2019-cu ilin "Nəsimi İli" elan edilməsi Azərbaycanın öz milli-mənəvi, tarixi dəyərlərinə, görkəmli şəxsiyyətlərinə, klassik ədəbiyyat irsinə yüksək qiymət verdiyinin daha bir təzahürü olmaqla yanaşı, azad ruhlu şairin dünyada məhz Azərbaycan şairi kimi tanınmasına şərait yaratdı.

Heç şübhəsiz ki, Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə 2020-ci ilin ölkəmizdə "Könüllülər İli" elan edilməsi insanların sülhsevərlik, xeyirxahlıq kimi ümumbəşəri dəyərlər ətrafında birləşməsinə, Azərbaycanın parlaq gələcəyinin təminatçısı olan gənclərin dövlətə, Vətənə bağlı, məsuliyyətli bir vətəndaş kimi formalaşmasına, uğurla həyata keçirilən gənclər siyasətinə yeni nəfəs verəcək.

Ölkəmizdə gənclərin hərtərəfli inkişafı, onların düzgün yetişdirilməsi, milli-mənəvi dəyərlərə sadiqlik və vətənpərvərlik ruhunda tərbiyəsi Prezident İlham Əliyev tərəfindən daim diqqət mərkəzində saxlanılıb. Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş dövlət gənclər siyasətini Prezident İlham Əliyevin uğurla davam etdirməsinin nəticəsidir ki, bu gün Azərbaycan gəncləri bütün sahələrdə özlərini doğruldub, ölkəmizi dünya miqyasında layiqincə təmsil etməyi bacarıblar. Prioritet istiqamət olaraq müəyyən edilən gənclər siyasəti, öz növbəsində, ölkədə könüllülük hərəkatının geniş vüsət almasına şərait yaradıb, könüllülüyü gənclərin yeni inkişaf modeli kimi təqdim edib.

Prezident İlham Əliyevin xeyir-duası ilə yaranan "ASAN" könüllülük hərəkatı digər könüllülük fəaliyyətlərinin də yaranmasına stimul oldu. "Bir" Tələbə-Könüllü proqramı, "Aqrar İnkişaf Könüllüləri", prokurorluq orqanlarında "ictimai köməkçilər" kimi çoxlu sayda könüllü hərəkatlarının yaranması dövlətimizə, cəmiyyətimizə təcrübəli, bacarıqlı, müasir düşüncəli Azərbaycan gənclərini qazandırdı, kadr ehtiyatını inkişaf etdirdi. Könüllülük dövründə gənclər respublikamızda aparılan islahatların və inkişafın fəal iştirakçısına çevrildilər. "Eurovision" mahnı müsabiqəsi, I Avropa Oyunları, Formula 1 yarışları, IV İslam Həmrəyliyi Oyunları kimi irimiqyaslı beynəlxalq tədbirlərin həyata keçirilməsində əvəzsiz rol oynadılar. Prezident İlham Əliyev 2019-cu il fevralın 1-də Azərbaycan Gəncləri Gününə həsr olunmuş respublika toplantısında ölkədə könüllülük fəaliyyətini yüksək qiymətləndirərək, dövlət qurumlarına və özəl təşkilatlara gəncləri könüllü kimi işə cəlb etməyi və onlara təcrübə qazanmağa fürsət yaratmağı tövsiyə edib.

Ötən il dekabrın 5-də Beynəlxalq Könüllü Günü ərəfəsində Azərbaycanda ilk dəfə "Könüllülük həftəsi" keçirilib, ölkəmizdə olan könüllülük hərəkatının gücü və perspektivləri nümayiş etdirilib. Bütün bunlar göstərir ki, cənab Prezident İlham Əliyevin 2020-ci ili Azərbaycanda "Könüllülər İli" elan edilməsi barədə Sərəncamı gənclərdə müstəqil dövlətimiz üçün sosial məsuliyyət hissinin güclənməsinə, gəncliyin öz potensialına inamının artmasına, həmçinin uğurla həyata keçirilən dövlət gənclər siyasətinin inkişafına müsbət təsir göstərəcək.

**Cavid Əkbərov, *"İki sahil"***

# Könüllülük cəmiyyət və dövlətin birgə fəaliyyətinin ən uğurlu formatıdır





Ölkə Prezidenti cənab İlham Əliyevin 2020-ci ili "Könüllülər İli" elan etməsi ilə əlaqədar Pirallahı Rayon İcra Hakimiyyətinin və Yeni Azərbaycan Partiyası (YAP) Pirallahı rayon təşkilatının birgə təşkilatçılığı, Bakı Şəhər Mədəniyyət və Turizm İdarəsinin dəstəyi ilə Pirallahı rayonunda tədbir keçirilib.

Vaqif Mustafazadə adına Mədəniyyət Mərkəzində keçirilən tədbirdə YAP Pirallahı rayon təşkilatının sədri Hikmət Şikarov qeyd edib ki, Azərbaycan xalqı əsrlər boyu xeyirxahlıq, fədakarlıq, könüllü və təmənnasız kömək ənənələrini yaşadıb: "Könüllülük insanları vahid niyyət ətrafında birləşdirən, vətəndaş, cəmiyyət və dövlətin birgə fəaliyyətinin ən uğurlu formatıdır. Könüllülük həm də vətənpərvərlik məktəbi, öz xalqına, dövlətinə, milli-mənəvi dəyərlərə bağlılıq və xidmət örnəyidir. Könüllülərimiz öz kreativliyi, təşəbbüskarlığı, innovativ düşüncə tərzi və müasir dünyagörüşləri ilə qoşulduqları fəaliyyətə yeni nəfəs vermiş, ölkəmizdə Avroviziya Mahnı Müsabiqəsi, I Avropa Oyunları, "Formula 1" yarışları, IV İslam Həmrəyliyi Oyunları kimi irimiqyaslı beynəlxalq tədbirlərin həyata keçirilməsində əvəzsiz rol oynamışlar. Ötən il 5 dekabr - Beynəlxalq Könüllü Günü ərəfəsində Azərbaycanda ilk dəfə keçirilmiş və bütün könüllüləri əhatə etmiş "Könüllülük həftəsi" ölkəmizdə könüllülüyün yeni mərhələyə qədəm qoyduğunu və böyük potensiala malik olduğunu nümayiş etdirib."

Tədbirin bədii hissəsində Azərbaycanın Respublikasının Əməkdar artisti Mətanət İsgəndərli, muğam müsabiqəsinin qalibi Nisbət Sədrayeva və digər tanınmış incəsənət nümayəndələrinin çıxışları iştirakçılar tərəfindən böyük rəğbətlə qarşılanıb.

Tədbirin sonunda partiyanın ictimai-siyasi həyatında fəallıqlarına görə bir qrup şəxsə Fəxri fərmanlar təqdim olunub.

**Orxan Vahidoğlu, *"İki sahil"***